

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

16 MART 2024-cü il ŞƏNBƏ № 59 (7817) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ

## Gələcək firavan dünyamız naminə qlobal dialoq və həmrəylik forumu




***"Beləliklə, birincisi, COP29 bizə onu nümayiş etdirməyə imkan verəcəkdir ki, müstəqil yaşayan və heç kəsdən asılı olmayan bir ölkə uğurla inkişaf edə bilər. Bu, həm də Azərbaycanın son 30 ildə apardığı düzgün siyasəti nümayiş etdirir. Praktiki nöqteyi-nəzərdən isə bu, bizim üçün həmrəyliyə töhfə vermək fürsəti olacaq". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev "Parçalanmış dünyanın bərpası" mövzusunda keçirilən XI Qlobal Bakı Forumunda bildirib. Dövlət başçısı qeyd edib ki, bizim dördillik sədrliyimiz nəticəsində 120 üzvlə BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatında xüsusi ab-hava yarandı. Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan strateji tərəfdaşlığa dair bəyannamə imzalayıb. Biz 50-dən çox ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının üzvüyük. Yəni biz müxtəlif ölkələri bir araya gətirmək imkanına malikik və bu gün iqlim məsələlərinin həll edilməsi üçün məhz buna ehtiyac var.***

Paytaxt Bakı daha bir əhəmiyyətli tədbirə ev sahibliyi edir. Bu, "Gülüstan" sarayında Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Parçalanmış dünyanın bərpası" mövzusunda keçirilən XI Qlobal Bakı Forumudur. Forumda qlobal əhəmiyyət kəsb edən məsələlər müzakirə edilir. Prezident İlham Əliyevin hazırkı dövrün çağırışlarını özündə ehtiva edən çıxışı Azərbaycanın möhkəm təməl üzərində daha möhtəşəm uğurlara, qələbələrə doğru inamla irəlilədiyini təsdiqləyir. Ölkəmizin yaşıl keçid istiqamətində də çox vacib layihələri icra edilir. Beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-un Bakıda keçirilməsi ilə bağlı qərar Azərbaycana olan böyük etimadın təzahürüdür. Azərbaycan bu tədbirə ev sahibliyi edərək qlobal səviyyədə iqlim dəyişmələri ilə mübarizə prosesinə və milli səviyyədə olan uğurlu addımları ilə yaşıl keçid prosesinə töhfə vermək əzmini və niyyətini göstərir. Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi, müxtəlif beynəlxalq təşkilatlarda fəal rolu və təmsilçiliyi COP29-a sədrliyin də uğurla başa çatdırılması üçün əlverişli imkan yaradır.

Forumun əhəmiyyətli bir dönəmdə keçirildiyini bildirən Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Rişi Sunak XI Qlobal Bakı Forumu münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubunda vurğulayıb ki, Bakı noyabrda COP29-a ev sahibliyi edəcək və bütün dünyanın diqqəti heç vaxt olmadığı qədər Azərbaycana yönələcək. Bilirəm ki, ölkəniz bu çağırışın öhdəsindən layiqincə gələcək və ənənəvi qonaqpərvərliklə mükəmməl tədbir təşkil edəcəksiniz. Dubayda COP28 çərçivəsində keçirilmiş qlobal dəyərləndirmə təcili fəaliyyətə ehtiyac olduğunu nümayiş etdirdi. Bu il razılaşdırdığımız iddialı öhdəliklərin həyata keçirilməsi baxımından diqqət Azərbaycanın üzərində olacaq.

Forumda 68 ölkədən 400-dən çox qonağın iştirak etməsi, bu tədbirin mütəmadi olaraq Azərbaycanda keçirilməsi və müxtəlif ölkələrdən keçmiş prezidentlərin, baş nazirlərin, alimlərin qatılması ölkəmizin bölgədəki əhəmiyyətini, eləcə də oynadığı rolu bir daha nümayiş etdirir. Forumun Azərbaycanın ərazi bütövlüyünün tam bərpasından sonra baş tutması qazandığımız uğurların beynəlxalq müstəvidə qərar qəbul edən mərkəzlərin diqqətinə çatdırılmasında onun əhəmiyyətini artırır.

Cənab İlham Əliyev dünyanın aparıcı siyasətçiləri sırasında öz sözü, qətiyyətli mövqeyi olan dövlət başçısı və vədinə sadiq etibarlı tərəfdaş kimi tanınır. Bu da bir daha onu deməyə əsas verir ki, dövlət başçımız qlobal təşəbbüslərilə Avrasiyanın enerji siyasətinə mühüm töhfələr verir.

(davamı 2-ci səhifədə)

# Gələcək firavan dünyamız naminə qlobal dialoq və həmrəylik forumu

**(əvvəli 1-ci səhifədə)**

Avropanın əksər ölkələri isə cənab İlham Əliyevi müstəqil mövqeyi olan Prezident kimi çox yüksək dəyərləndirirlər. Liderimiz hər zaman milli maraqlarımızı qətiyyətlə təmin edir və uzaqgörən qərarları ilə tarixin ən qüdrətli Azərbaycanını böyük qürurla, fəxarətlə daha möhtəşəm gələcəyə aparır. Azərbaycan öz gücü hesabına azad olunmuş əraziləri tamamilə yenidən və müasir standartlara uyğun şəkildə qurur. Çoxtərəfli və balanslaşdırılmış xarici siyasət kursunda dünyanın ən aparıcı ölkələri ilə strateji tərəfdaşlıq münasibətlərinin qurulması əsas prioritetlərdəndir. Yürüdülən bu müstəqil siyasət ölkəmizin geosiyasi və geoiqtisadi çəkisini getdikcə yüksəldir. Qlobal Bakı Forumunun dünya əhəmiyyətli diskussiya platformasına çevrilməsi Azərbaycanın da beynəlxalq müstəvidə təsirini artırır, mövqelərini möhkəmlədir və ölkəmizi dünyaya, dünyanı ölkəmizə daha yaxşı tanıtdırmağa imkan yaradır. Qlobal Bakı Forumu Azərbaycanın gücünün, inkişafının rəmzinə çevrilib və Forumu əhəmiyyətli edən məsələlərdən biri də tam müstəqil olmasıdır.

Dövlətimizin başçısı ötən dövrdə Cənubi Qafqaz regionu üçün sülh imkanlarının yarandığını da bəyan edib. Azərbaycan öz həqiqətlərini təqdim etməklə yanaşı, geosiyasi məsələlərlə bağlı münasibətlərin formalaşmasına nəzəri olaraq töhfə verir. Forumun mövzularından da bəlli olur ki, səsləndirilən çağırışlar sadəcə bir fikir olaraq deyil, gələcəklə bağlı ümidlərin yaranmasına, bu arzu və istəklərin reallıqda öz əksini tapmasına xidmət etməlidir. Bu gün Azərbaycan təkcə sivilizasiyalararası dialoqa deyil, əməkdaşlıq üçün də bir şərait yaradır. Qarşıdurmaların, dünyanı təhdid edən təhlükələrin qarşısını almaq üçün birgə fəaliyyət mütləqdir. Çünki hazırkı dünyanın qlobal problemlərinin həlli də məhz bu yoldan keçir. Həm də Qlobal Bakı Forumu Azərbaycan üçün öz problemlərinin həlli baxımından bir fürsət hesab olunur.

Rəsmi Bakı öz baxışları ilə dünyanın tanınmış siyasi liderlərinə mühüm ismarışlar verir. Prezident İlham Əliyev "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında söyləyib ki, sonuncu görüşümüzdən sonra dünyada və regionumuzda bir çox hadisələr baş




verib. Əsas geosiyasi dəyişiklik Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpasıdır.

Müsahibə və çıxışlarında ölkə başçımız mütəmadi olaraq bildirir ki, Azərbaycan sülhün tərəfdarıdır və regionda baş verən bütün proseslərə təmkinlə yanaşır. Vətən müharibəsindən sonra regionda vəziyyət mürəkkəb olaraq qalır. Bu gərginliyin səbəbi Ermənistanın üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq üzərinə düşən vəzifələri yerinə yetirməməsidir. Ermənistanın öhdəsinə düşən vəzifələri icra etməkdən boyun qaçırması vəziyyətin daha da mürəkkəbləşməsinə yol açır. Növbəti dəfə Azərbaycan həqiqətlərini, erməni vəhşiliyini dünya ictimaiyyətinin diqqətinə çatdıran dövlət başçısı Fransanın ikili standartları barədə də öz fikirlərini bildirib. Fransada Azərbaycan xalqının tanınmış şairi Xurşidbanu Natəvanın heykəlinin vandalizmə məruz qalması barədə ciddi tənqidi fikirləri dilə gətirən Prezidentimiz Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq statuslu qeyri-hökumət təşkilatı olaraq müstəqil şəkildə fəaliyyət göstərdiyini və ölkəmizin də bu təşkilatın işinə dəstək verdiyini vurğulayıb.

Ümumiyyətlə, Qlobal Bakı Forumları müstəvisində aparılan müzakirələr, irəli sürülən təşəbbüslər dinlərarası dialoq, miqrasiya, multikulturalizm və inteqrasiya, enerji təhlükəsizliyi kimi məsələləri aktual saxlamağa, bu sahələrdə çətinliklərin aradan qaldırılması ilə əlaqədar qlobal əhəmiyyətə malik qərarların qəbuluna yardım göstərir. Forumlarda dövrün reallıqlarına uyğun olaraq müxtəlif məsələlər ətrafında müzakirələr aparılır. Bu forumun digər bir əhəmiyyəti isə bu və ya digər məsələlərin həlli ilə bağlı fikirlər irəli sürülməsidir. Bu baxımdan Qlobal Bakı Forumunun olduqca böyük əhəmiyyəti var. Qlobal Bakı Forumunun dünya əhəmiyyətli diskussiya platformasına çevrilməsi Azərbaycanın da beynəlxalq müstəvidə təsirini artırır, mövqelərini möhkəmlədir. Bu baxımdan qeyd edilməlidir ki, Qlobal Bakı Forumu dünyanın bu günü və gələcəyi üçün çox mühüm əhəmiyyət kəsb edən toplantıdır.

**Mustafa KAMAL,**
**"Respublika".**